## Təqvim yada salır

**Bir poetik misrada şair özünü sözü, sözünü isə özü ilə eyniləşdirib: "Qoy bilsinlər: sözüm mənim – özüm mənim". Doğrudan da, söz xalisdirsə onu söyləyənin özüdür. Duyğularının çalarları ilə, düşüncəsinin dərinliyi və genişliyi ilə.**



# Sözün vaqifi – Vaqifin özü

Əlbəttə, söhbət şablonlarla baş girləyənlərdən, çırpışdırma arxasında gizlənənlərdən deyil, mövzu toxumlarını daxilində cücərdib özünü sözünə çevirənlərdən gedir. Jurnalistikada beləsinə peşəkar deyirlər. Media işçisinin peşəkarlığını həm də onun çalışqanlığı və intizamı tamamlayır. İmzası son 3 onillikdə "Xalq qəzeti"nin hər nömrəsindən geniş oxucu auditoriyasına yaxşı bəlli olan Vaqif Bayramov, bax, belə qələm sahiblərindəndir.

İş elə gətirib ki, jurnalist yaradıcılığına sovet dövründə çoxtirajlı tikinti qəzetindən gələn həmkarımız, o dövrdə də, elə indi də, çox da maraqla qarşılanmayan iqtisadi mövzularla başlayıb. Sonra "İnşaatçı" respublika qəzetində jurnalistikada "düyünlü kötük" sayılan həmin iqtisadi mövzuları məharətlə "yarması" ilə bu sahədə fəaliyyət göstərən təcrübəli jurnalistlərin diqqətini cəlb edib.

Sovet dövrünün tanınmış jurnalistlərindən olmuş Rəfail Nağıyev "Sovet kəndi" qəzetini "Bərəkət" adı altında 1990-cı ildə, necə deyərlər, milliləşdirəndə Vaqif Bayramovu kiçik bir yoxlanışdan sonra "biz sənin kimisini axtarırıq",– deyərək dərhal işə götürüb. O dövrdə yeni yaradılmış "Respublika" qəzeti də onu yaradıcı heyətinə jurnalistikaya könül vermiş yazar kimi qəbul edib. 1995-ci ildə isə ölkənin avanqard "Xalq qəzeti"nin fəaliyyəti yenidən təşkil ediləndə qocaman nəşri "cavanlaşdırıb qüvvətləndirməyə" cəlb edilən perspektivli jurnalistlərdən biri də Vaqif Bayramov olub.

Bu qəzetin iqtisadiyyat şöbəsinin müdiri, iqtisadçıların "professor" adlandırdıqları mərhum Əlipənah Bayramovla 25 illik birgə fəaliyyət, "ustad– şəyird" münasibəti Vaqif Bayramovun özünü də "professorlaşdırıb". Son 5 ildə təqaüdə getmiş müdirini əvəz edən Vaqif bu nüfuzlu şöbəni yenə ölkədə iqtisadi mövzu jurnalistikasının ən peşəkar ünvanı kimi tanıtmaqda davam edir. Təkcə onu deyək ki, iqtisadi sferanın yüksək rəhbərlərindən tutmuş, bu sahədə tanınmış mütəxəssislərədək çox sayda oxucumuz hər gün qəzeti əlinə alan kimi, ilk olaraq iqtisadiyyat səhifəsini açır, məmnunluqlarını müxtəlif yollarla redaksiyaya çatdırır.

Əlavə edək ki, Vaqif Bayramovun müsahibi olmuş neçə-neçə iqtisadçı sonradan icra başçısı, nazir, deputat kimi məsul vəzifələrə yüksəlib. Onların bir çoxunun yazıları bu gün də qəzetimizin iqtisadiyyat səhifəsinə Vaqifin redaktəsi və təqdimatı ilə çıxır.

Yerinə düşən bir əhvalatı xatırladaq. Vaqif bir gün iqtisadi sahəyə rəhbərlik edən nazirin qəbuluna gedir. Köməkçiyə deyir ki, jurnalistəm, nazirə suallarım var. Nazir deyir ki, getsin müavinin yanına. Müavin isə məsələnin ciddiliyini nazirə çatdırıb gələnin Vaqif Bayramov olduğunu deyir. Nazir dərhal müavinin otağına gəlib üzrxahlıq edərək həmkarımızı kabinetinə aparır və deyir: "Vaqif müəllim, siz o jurnalistlərdənsiniz ki, gərək lazım olanda biz redaksiyaya gələk".

Bəli, Vaqif redaksiyanın da öz yerində olan – öz sözü ilə oxuculara təsir edən, yazdıqları gec-tez faydalı əmələ çevrilən say-seçmə yazarlarındandır. Onun nə vaxtsa işə gecikdiyini, yaxub gəlmədiyini bu vaxtadək görən olmayıb. Hər gün evə gec getməsi, hətta məzuniyyət günlərinin çoxunu redaksiyada keçirməsi isə iş yoldaşlarının gözləri qarşısındadır. Onun nə vaxtsa tapşırığı yerinə yetirmədiyi, üzərinə düşən yükü başqasının boynuna qoyması da yada gəlmir. Olur ki, evə çatar-çatmaz rəhbərlikdən aldığı təcili mövzunu da dincini almamış işləyib redaksiyaya göndərir.

**Bax, bu dediklərimiz sözün vaqifi olan Vaqifin özünü rəsm edir. Vaqifin özü isə 65 yaşın tamamında dedi:**

– Müəllim ailəsində, halal çörəklə böyümüşəm. Sözün də eşidilən, qəbul edilən olması halallığa bağlıdır. Sözə bir balaca haramlıq – yalan, qərəz, təmənna qatdınsa, zəhər kimi onu çürüdəcək və müəllifinə üzqaralığı gətirəcək. Bir də gərək dediyin söz adamlara nəsə bir fayda gərirsin. Hay-küylü yazılarla maraq qazanmaq asandır, amma önəmsizliyinə görə tez gözdən düşərsən.

Onu da deyim ki, iqtisadi mövzuda yazılarla maraq doğurmaq o qədər asan deyil. Amma adamlar bu mövzunun onların güzəranı ilə, gələcək taleyi ilə bağlı olduğunu görəndə daimi oxucuya çevrilirlər. Biz qəzetimizin iqtisadiyyat səhifəsini bax, belə bir səviyyəyə çatdırmağa çalışırıq.

Sonda onu da bildirək ki, Vaqif Bayramov başqa mövzu və janrlarda da eyni məharətlə yazılmış çoxsaylı yazının müəllifidir. Onun belə qələm nümunələri müxtəlif yaradıcılıq müsabiqələrində mükafatlara layiq görülüb. Qərbi Azərbaycanın Qarakilsə (Sisian) rayonuun Ağudi kəndində 65 il əvvəl fevralın16-da dünyaya göz açmış, o torpağın havası, suyu, çörəyi ilə böyümüş jurnalistin qədim yurd yerimizlə, qaçqınların başına gətirilmiş müsibətlərlə bağlı silsilə yazıları və kitabları da ona layiqli hörmət və nüfuz qazandırıb. Dövlətin layiq gördüyü mükafat isə daha dəyərlidir: həmkarımız çoxillik səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

Vaqif Bayramov artıq ömrünün ahıllıq çağına qədəm qoyur, yaradıcılığının məhsuldar bir çağıdır. Ömrünün son 29 ili "Xalq qəzeti"nin divarları arasında keçmiş istedadlı və fədakar jurnalist dostumuzu 65 yaşa çatması münasibətilə səmimi təbrik edir, ona möhkəm cansağlığı və daha böyük yaradıcılıq uğurları arzulayırıq.

***Tahir AYDINOĞLU,***
***Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri,***
***Əməkdar jurnalist***